Ədəbiyyat qəzeti:xüsusi buraxılış



# SƏBİRSİZ SABİRLƏR



Rafael HÜSEYNOV

Nizami Gəncəviyə qədər Nizami, Xaqani Şirvaniyə qədər Xaqani, İmadəddin Nəsimiyə qədər Nəsimi, Məhəmməd Füzuliyə qədər Füzuli, Molla Pənah Vaqifə qədər Vaqif, Hüseyn Cavidə qədər Cavid... bizlərdə ayrıca ad olmayıb. Bu dahi insanlar həmin kəlmələri şərəfləndirərək özlərinə təxəllüs seçiblər. Bu müstəsna insanların işığıyla nurlanmış o sözlər insanlarımıza əziz gəlib, başlayıb balalarına həmin adları verməyə. İndi Azərbaycanın ad yaddaşında yüzlərlə, minlərlə Nizamilər, Xaqanilər, Nəsimilər, Xətailər, Füzulilər, Vaqiflər, Cavidlər... var. Və yəqin, övladlarına sevərək bu uca şəxsiyyətlərin adlarını verən ata-anaların ürəklərindən balalarının ağılda-kamalda, istedadda, şöhrətdə ulu adaşlarına bənzəmələri arzusu da keçməmiş olmayıb.

Adları sırf şərti işarə hesab edənlər də var. Adların insan taleyinə təsir edə bilməsinə inananlar da. Amma ən azı bir nəfərin timsalında mən inanıram ki, böyük ad, o adı daşımış qüdrətli şəxsiyyətin cazibəsi ruh olub seçdiyi adaşının varlığını doldura, öz gücünün, öz şəfqətinin bir parçasını xələfinə, davamçısına ötürə bilər.

Azərbaycanın Xalq şairi, millət adamı (onun rəsmən daşıdığı "millət vəkili" titulu da var. Amma çox adam millət vəkili ola bilər, hər millət vəkili əsl millət adamı sayılmaq mərtəbəsinə yüksəlməz) Sabir Rüstəmxanlı söz yox ki, Mirzə Ələkbər Sabirdən sonra Sabir adı qoyulmuş ilk azərbaycanlı deyil.

O Sabirlə bu Sabir ayrı-ayrı məktəblər, fərqli üslublar, bənzəməz yazı tərzləridir. Lakin o Sabir bu Sabirin içərisində döyünür. Onların amalları, məsləkləri bu yurda və xalqa məhəbbətləri eynidir. Bu Sabir o Sabirin uğrunda can qoyduğu amalları bütün yaradıcılığı və ictimai fəaliyyətləri boyunca daşıyan insandır. Bu Sabir o Sabiri XX yüzilin əvvəlində ağrıdan dərdləri XX yüzilin son onillərində, XXI əsrin əvvəllərində qələminə gətirən, köhnə dövrdə misilsiz adaşının deməyə, yazmağa macal tapmadıqlarını yeni zaman içərisində ədəbiyyatın ötkəm sözünə çevirəndir.

Sabir Rüstəmxanlı bu günədək yaratdıqları ilə görkəmli babasının etibarlı nəvəsi, onun möhtəşəm ruhunun sağlam dasıyıcısı olduğunu dönə-dönə sübuta yetirib. Yol isə davam edir və Sabir Rüstəmxanlının yaşayıb-yaradacağı çoxlu illər, deməli, Böyük Adaşının əsl varisi olduğunu, daşıdığı şərəfli ada layiqliyini, həqiqətə, qələmə və xalqa sədaqətini yenidən dəfə-dəfə təsdiqləmək imkanları hələ qarşıdadır.

..."Sabir" sözü isə nə O, nə bu Sabirə yaraşır. "Sabir" dözən, səbr edən deməkdir. Ancaq barışmadıqlarına, qəbul edə bilmədiklərinə, nifrət bəslədiklərinə hansı qəliz vaxt içərisində yaşamaqlarından asılı olmayaraq nə Mirzə Ələkbər səbr edib, nə də Rüstəmxanlı.

Elə səbr edə bilmədiklərinə, susmağı bacarmaqdılarına görə də bütün başqa Sabirlərdən seçiliblər - hamımızın Sabirlərinə çevriliblər!

*16 avqust, 2012*